“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 14 yanvar 2015-ci il | № 3 (1919) | Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# “2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik”

### Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib



***Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. Dövlətimizin başçısı iclasda giriş nitqi söyləyib.***

Keçən ilin əvvəlində qarşımıza qoyulan bütün vəzifələrin uğurla icra edildiyini söyləyən Prezident İlham Əliyev 2014-cü ilin ölkəmiz üçün uğurlu il kimi tarixdə qalacağını bəyan etdi: "Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurla icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il də görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək".

Ölkə iqtisadiyyatının uğurla inkişaf etdiyini dilə gətirən dövlət başçısı qeyd etdi ki, bəzi ölkələrdə artım olmadığı, əksinə, tənəzzül müşahidə edildiyi halda, iqtisadiyyatımız təxminən 3 faiz artmışdır. Bu, bugünkü dünyada çox gözəl göstəricidir.

Ölkə rəhbərinin qeyd etdiyi kimi, əgər bu siyasət, investorların Azərbaycanın sabitliyinə, gələcəyinə inamı olmasaydı, heç kim Azərbaycana vəsait qoymazdı. 27 milyard dollar həcmində investisiya qoyuluşu və bunun müqabilində 1,4 faizlik inflyasiya Azərbaycanın uğurlu inkişafının ən gözəl göstəricisidir. Çünki həm pensiyalar, maaşlar, həm də əhalinin pul gəlirləri artmışdır, böyük həcmdə investisiya qoyulmuşdur, inflyasiya isə ən aşağı səviyyədədir.

Sosial sahənin prioritet olduğunu söyləyən Prezident İlham Əliyev bildirdi ki, sosial obyektlərin inşası uğurla təmin edilmişdir. Əməkhaqqı, pensiya artmışdır.

Dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllilə bağlı fikirlərini də səsləndirib:

- O ki qaldı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə, əfsuslar olsun ki, keçən il də bu istiqamətdə heç bir irəliləyiş olmamışdır. Keçən il də Ermənistan sadəcə olaraq danışıqlar prosesində imitasiya taktikasını seçmişdir. Hesab edirəm, bu, artıq nə bizim üçün, nə də vasitəçilər üçün sirr deyil ki, Ermənistan sülh istəmir. Ermənistan istəyir ki, bu münaqişə öz həllini tapmasın və işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Baxmayaraq ki, Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçıları dəfələrlə demişlər ki, status-kvo qəbuledilməzdir. Ancaq bu, sözlərdən başqa bir şey deyil. Sadəcə olaraq sözlərdir və bu sözlərin arxasında heç bir ciddi siyasət dayanmır. Əgər status-kvo qəbuledilməzdirsə, - bu, əlbəttə ki, qəbuledilməzdir, - onda bir tədbir görülməlidir. İşğalçı dövlətə təzyiq göstərilməlidir. O, məcbur edilməlidir ki, işğal olunmuş torpaqlardan çıxsın. Yoxsa bu da riyakarlığın bir növüdür. Bir bəyanat verilir, onun arxasında iş görülmür. Necə ki, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Heç biri 20 ildən çoxdur ki, icra edilmir. Nə üçün başqa yerlərdə qəbul edilmiş qətnamələr dərhal icra edilir, bizə gəldikdə icra edilmir?! Bu, ədalətsizlikdir, bu, ikili standartlardır. Artıq Azərbaycan xalqı bunu yaxşı bilir, dərk edir ki, bu problemin həll olunmaması təkcə Ermənistanın qeyri-konstruktiv mövqeyi ilə izah edilə bilməz. Görünür, dünyada elə qüvvələr var ki, bu münaqişənin həll olunmasında maraqlı deyillər. Görünür, elə qüvvələr var ki, maraqlıdır bu münaqişə dondurulmuş, yarıdondurulmuş vəziyyətdə qalsın və bundan Azərbaycana bir təzyiq vasitəsi kimi istifadə etsinlər. Son illərdə müxtəlif bölgələrdə - Avropada, Yaxın Şərqdə gördüyümüz mənzərə bax, bu mövqeyi, bu yanaşmanı daha da gücləndirir. Proseslərdən belə nəticə çıxır. Ona görə buna da aydınlıq gətirilməlidir ki, biz nə vaxta qədər bu ikili standartlarla üzləşəcəyik?!

Bununla bərabər, Ermənistan keçən il yay aylarında və ilin sonunda bir neçə dəfə açıq təxribatlara əl atmışdır. Hər iki dəfə Azərbaycan Ordusu düşmənə layiqli cavab verərək onu yerinə oturtdu. Yay aylarında 50-dən çox işğalçı məhv edildi. Noyabr ayında isə ermənilərin təxribatı cavabsız qalmamışdır. Bütün bu təxribatların nəticəsində baş verən hadisələrə görə Ermənistan rəhbərliyi - kriminal, diktatura rejimi məsuliyyət daşıyır. Ermənistanın bugünkü acınacaqlı vəziyyətinə görə də bu ölkənin indiki və əvvəlki rəhbərliyi bilavasitə cavabdehlik daşıyır. Çünki məhz onların işğalçı siyasətinə görə Ermənistan müstəqil ölkə kimi özünü göstərə bilməmişdir. Faktiki olaraq heç müstəqilliyi əldə etməmişdir. Sadəcə olaraq bu, formal bir məna daşıyır.

Azərbaycan isə bu məsələdə də prinsipial mövqedədir. Bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bizim mövqeyimizi gücləndirən ordumuzdur. Bizim ordumuz keçən il öz qüdrətini, nəyə qadir olduğunu göstərdi. Düşmənə də, düşmənin havadarlarına da göstərdi ki, istənilən vaxtda Azərbaycan Ordusu öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə bu məsələ öz həllini danışıqlar yolu ilə tapsa, əlbəttə ki, daha yaxşı olar. Hesab edirəm ki, bu bir neçə amilin mövcudluğu bizim mövqeyimizi daha da möhkəmləndirir.

Danışıqlar prosesində heç bir irəliləyişin olmamasına baxmayaraq, mən hesab edirəm ki, keçən il Azərbaycan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün çox böyük işlər görmüşdür - həm siyasi sahədə, həm regional çərçivədə və həm də hərbi sahədə - döyüş meydanında. Biz ermənilərə elə dərs verdik ki, indiyə qədər özlərinə gələ bilmirlər, təşvişdədirlər, isterikadadırlar. İndi bizi müxtəlif beynəlxalq tədbirlərdə ittiham etməyə çalışırlar. Amma sual olunur: erməni əsgərinin Ağdamda, Füzulidə nə işi var? Erməni ordusunun orada nə işi var? Nə üçün onlara bunu bizdən başqa heç kim açıq-aydın şəkildə demir? Bu məsələ ilə məşğul olan vasitəçilər buna nə üçün biganə yanaşırlar? Bax, bu suallar ritorik suallardır. Biz bilirik nə üçün. Amma yenə də biz bu sualları hər bir tədbirdə, hər bir forumda verməliyik. Dövlət məmurları, ictimai xadimlər, deputatlar, adi vətəndaşlar, vətəndaş cəmiyyətinin üzvləri bu sualları verməlidirlər. Qoy, bu suallara, ikili standartlar siyasətinə, ermənipərəst siyasətinə görə cavab versinlər. Yoxsa bu qədər riyakarlığa artıq dözmək çətindir. Hesab edirəm ki, artıq burada diplomatik dillə danışmağa da heç ehtiyac yoxdur. Bir daha demək istəyirəm, həqiqət bundan ibarətdir ki, bizim torpaqlarımızın işğal altında qalması sadəcə olaraq Ermənistanın işi deyil. Ermənistan aciz durumda olan, gücsüz, dilənçi bir ölkədir. Əlbəttə, əgər onun müxtəlif paytaxtlarda böyük havadarları olmasaydı, Dağlıq Qarabağ münaqişəsi çoxdan ədalətli şəkildə öz həllini tapa bilərdi. Hətta hazırda Ermənistan rəhbərliyi də bunu etiraf edir. Xarici dəstək olmadan onlar işğal edilmiş torpaqları bir gün də işğal altında saxlaya bilməzlər. Ancaq biz təkbaşına mübarizə aparırıq. Yaxın tariximiz göstərib ki, biz hətta təkbaşına mübarizədə, siyasi mübarizədə uğur qazana və öz milli maraqlarımızı müdafiə edə bilərik.

2015-ci ildə biz ordu potensialımızı daha da gücləndirəcəyik. Bu məqsədlər üçün kifayət qədər böyük vəsait ayrılıbdır. Təkcə onu demək kifayətdir ki, hərbi xərclərə ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən 2 dəfədən çoxdur. Ordumuzda nizam-intizam, döyüş qabiliyyəti artır, vətənpərvərlik ruhu yüksək səviyyədədir. Biz daha da güclü oluruq, Ermənistan daha da zəifləyir. Bu, qaçılmaz bir prosesdir. Yəni, növbəti illərdə ancaq bu proses daha da sürətlə gedəcək.

**AzərTAc-ın materialları əsasında**

## BBC News:

### "Dağlıq Qarabağ münaqişəsi: Azərbaycanlıların doğma torpaqlarına qayıtmaq arzusu"

***"BBC News"un saytında "Dağlıq Qarabağ münaqişəsi: Azərbaycanlıların doğma torpaqlarına qayıtmaq arzusu" sərlövhəli məqalə yerləşdirilib.***

Məqalədə Azərbaycanın Tərtər rayonunun Qazyan kəndinin sakinlərinin Ermənistan silahlı qüvvələrinin atəşlərinə məruz qalmaları səbəbindən üzləşdikləri ağır vəziyyətdən bəhs edilir. Müəllif Dağlıq Qarabağın və ona bitişik yeddi rayonun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinə gətirib çıxarmış Ermənistan-Azərbaycan münaqişəsinin tarixi, qoşunların təmas xəttindəki hazırkı vəziyyət barədə də məlumat verir.

Məqalədə rəsmi Bakının münaqişənin sülh yolu ilə həll edilməsinin tərəfdarı olduğu vurğulanır. Həmçinin yazıda Azərbaycan Respublikası Müdafiə nazirinin şəxsi heyət üzrə müavini general-leytenant Kərim Vəliyevin bu sözləri də yer alıb: "Əgər münaqişə sülh yolu ilə həll olunmasa, torpaqlarımızı hərbi yolla da geri qaytara bilərik".

Qeyd edilir ki, Azərbaycan dünyada ən çox məcburi köçkün əhalisi olan ölkələrdən biridir. Dövlət bu insanların yaşayış şəraitinin yaxşılaşdırılması, onların yeni mənzillərlə təmin olunması üçün proqram həyata keçirir. Lakin məcburi köçkünlərin ən böyük arzusu doğma torpaqlarına qayıtmaqdır.

Məqalədə Azərbaycan rəhbərliyinin işğal altındakı torpaqları azad etməkdə qətiyyətli olduğu vurğulanır. Prezident İlham Əliyevin "Azərbaycan bayrağı işğal edilmiş bütün torpaqlarda dalğalanacaq" sözləri oxucuların diqqətinə çatdırılır.

**AzərTAc**

## İranın "Daniznews" saytı AzərTAc-ın erməni saxtakarlığını ifşa etməsi ilə bağlı xəbər yayıb

***İran İslam Respublikasının "Daniznews" saytı AzərTAc-ın növbəti erməni saxtakarlığını üzə çıxarması ilə bağlı xəbər yayıb.***

AzərTAc-ın bununla əlaqədar yaydığı materiala istinad edən sayt bildirir ki, İraq Ali İslam Şurasının rəsmi mətbu orqanı olan "əl-İstiqamə" qəzetində dərc olunmuş məqalədə 20 Yanvar faciəsində öldürülmüş azərbaycanlıların fotoşəkli guya bir əsr bundan əvvəl törədilmiş "erməni soyqırımı" qurbanları kimi təqdim edilib.

Eyni fotoşəkil, həmçinin uydurma "erməni genosidi"nin yüz illiyinin qeyd edilməsi üçün yaradılmış təşkilatın Qahirə komitəsinin Facebook səhifəsində də yerləşdirilib. Qeyd edək ki, bu fotoşəkil 1990-cı il yanvarın 20-də AzərTAc-ın fotomüxbiri tərəfindən çəkilib və onun originalı agentliyin arxivində saxlanılır.

Əslində, "genosidi" bu cür saxta "dəlil-sübutla" əsaslandıran ermənilər fərqinə varmadan onu inkar etmiş olurlar. Təsəvvür edin, mediada bir hadisənin yüzilliyindən bəhs edir və həmin məqalədə Azərbaycan xalqının tarixinə 25 il əvvəl qanla yazılmış 20 Yanvar faciəsini əks etdirən fotonu yerləşdirirlər. Bundan daha böyük saxtakarlıq nə ola bilər?

## Silahlı Qüvvələrimizin bölmələri əməliyyat şəraitinə tam nəzarət edir

Ermənistanın Müdafiə Nazirliyi yanvarın 11-də dövlət sərhədi və yanvarın 12-də cəbhəboyu zonadakı vəziyyət barədə növbəti dəfə biri-birindən absurd, heç bir normal düşüncə tərzinə sığmayan, tam erməni xislətinə və məntiqinə uyğun dezinformasiya xarakterli xəbərlər yayıb. Acı gülüş və təəccüb hissi doğuran bu cür məlumatların adət halını alması Ermənistanın öz uğursuzluğunu qarşı tərəfdə axtarması cəhdindən başqa bir şey deyildir.

Düşmən öz xalqına yalanı sırımaqla yanaşı, artıq dünya ictimaiyyətini də yanlış və saxta xəbərlərlə çaşdırmağa çalışır. Ermənistanın Müdafiə Nazirliyi hansısa diversantlarla virtual döyüş aparır, guya beynəlxalq humanitar hüquqa riayət etmək şərtilə "neytral zonada" qalan "cəsədin" götürülməsinə şərait yaradır, hətta məcburən səngərlərə gətirib yerləşdirdikləri ahıl erməni çobanın da ölümünü Azərbaycan tərəfinin üstünə yıxmağa cəhd göstərir.

Müdafiə Nazirliyi rəsmi olaraq bildirir ki, Silahlı Qüvvələrimizin bölmələri əməliyyat şəraitinə tam nəzarət edir və müdafiənin ön xəttində yerləşən bölmələrimiz sutka ərzində heç bir itki verməyib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

## Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı bəyanat yayıb

***Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu (UABD) işğal altındakı Kəlbəcər rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş azərbaycanlılar Dilqəm Əsgərov və Şahbaz Quliyev üzərində qurulan "məhkəmə prosesi" və onların barələrində çıxarılan "hökm"lə bağlı etiraz bəyanatı yayıb.***

Diasporla İş üzrə Dövlət Komitəsindən AzərTAc-a bildiriblər ki, bəyanat BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığına və ATƏT-in Ukrayna nümayəndəliyinə, həmçinin ATƏT-in Minsk qrupunda təmsil olunan ölkələrin Kiyevdəki səfirliklərinə göndərilib.

Bəyanatda Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında olan bu insanların guya sərhədləri pozmaqda ittiham edilərək heç bir hüquqi əsası olmayan uydurma məhkəmə prosesinə cəlb edildiyi bildirilir. Qeyd edilir ki, D.Əsgərov və Ş.Quliyevin girov götürüldüyü torpaqlar Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş Azərbaycan ərazisidir. Onlar doğulub böyüdükləri torpaqlarda yaxınlarının məzarlarını ziyarət etməyə getmişdilər və heç bir gizli planları, təxribatçı niyyətləri olmayıb.

Bəyanatda daha sonra deyilir ki, doğulduqları torpaqların həsrəti ilə işğal altında olan ərazilərə keçərkən girov götürülən Həsən Həsənovun işgəncələrlə öldürülməsi, Dilqəm Əsgərov və Şahbaz Quliyevin girov götürülməsi beynəlxalq normalara və insan haqlarının qorunması prinsiplərinə ziddir.

BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş torpaqlarının boşaldılmasını nəzərdə tutan 822-ci qətnaməsini xatırladan bəyanat müəllifləri yazırlar ki, həmin sənəddə Kəlbəcər rayonunun Azərbaycan ərazisi olması təsdiqlənir.

Bəyanatda diqqətə çatdırılır ki, Azərbaycan əhalisinə qarşı etnik təmizləmə siyasəti ilə əlaqədar regionda, xüsusən də Kəlbəcərdə yaranmış fövqəladə humanitar vəziyyətdən BMT-nin ciddi narahatlığı ifadə edilir. "İşğaldan 20 ildən artıq müddət keçsə də, Ermənistan BMT Təhlükəsizlik Şurasının bu, habelə digər üç qətnaməsinə məhəl qoymamaqda davam edir, Ermənistan silahlı qüvvələrinin hələ də Azərbaycan, o cümlədən Kəlbəcər ərazisində olması isə qanunsuz işğalın davam etdiyini təsdiqləyir", - deyə bəyanatda vurğulanır.

Bəyanatın sonunda Ukrayna Azərbaycanlıları Birləşmiş Diasporu beynəlxalq təşkilatları vicdanlarına söykənərək məsələyə hüquqi norma və prinsiplər çərçivəsində yanaşmağa çağırır.

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri Niderland Krallığının Azərbaycandakı səfirini qəbul edib



**Yanvarın 13-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Niderland Krallığının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Robbert Gabrielseni qəbul edib.**

Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyətə toxunaraq Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubanmasını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Görüşdə Azərbaycan ilə Niderland arasında əlaqələrin inkişaf etdirilməsində qarşılıqlı marağın olması və hərbi sahədə münasibətlərin qurulması istiqamətində fikir mübadiləsi aparılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Təmas xəttində monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq yanvarın 14-də Füzuli rayonunun Horadiz kəndi yaxınlığındakı qoşunların təmas xəttində monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Yevgeni Şarov və Piter Svedberq keçirəcəklər.

Təmas xəttinin qarşı tərəfində isə monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Xristo Xristov, Jiri Aberle və Saymon Tiller keçirəcəklər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Ön xətdən reportaj*

# Qəhrəmanlığa aparan yol



***Qədir müəllimi xeyli müddətdir ki, tanıyıram. Vətənpərvər, fədakar el ziyalısıdır. Çoxlarına arxa, dayaq olub, neçə kimsəsizin əlindən tutub. Buna görə də onun el arasında kifayət qədər hörməti, izzəti var. Həmişə söhbətlərində bildirir ki, qarşımızda duran ən məsuliyyətli vəzifə işğal altında qalan torpaqlarımızın azad olunmasıdır. Bütün qüvvə və bacarığımızı bu istiqamətdə birləşdirməliyik. Bu istiqamətdə görülən məqsədyönlü işləri yüksək qiymətləndirən Qədir müəllim Respublika Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yeritdiyi daxili və xarici siyasətin xalqımız tərəfindən dəstəkləndiyini xüsusi vurğulayır. Silahlı Qüvvələrimizin müasir dövrün tələbləri səviyyəsində qurulmasını ölkəmizin ən böyük nailiyyəti kimi qiymətləndirən ziyalı daim gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsini zəruri sayır.***

Qədir müəllimlə söhbətdən sonra yolumuz səngər həyatı yaşayan igidlərlə görüşədir. Çox keçmir ki, "N" hərbi hissəsinin ərazisinə daxil oluruq. İlk baxışdan nizam-intizam diqqətimizi cəlb edir. Zabit Vüqar Cəfərov bildirir ki, şəxsi heyət Müdafiə Nazirliyinin təsdiq etdiyi plana əsasən döyüş hazırlığı ilə məşğuldur. Qarşımızda duran mühüm vəzifə şəxsi heyətin döyüş qabiliyyətini təkmilləşdirmək və mənəvi-psixoloji hazırlıq səviyyəsini yüksəltməkdir.

Gənc döyüşçülərin Vətənimizin keşiyində ayıq-sayıq dayandıqlarını, düşmənə həmişə layiqli cavab verməyə hazır olduqlarını bildirən təcrübəli zabit dövlət və ordu rəhbərliyi tərəfindən göstərilən qayğıdan ruhlanan şəxsi heyətin döyüş təcrübələrini daha da artırdıqlarını söyləyir.

Qısa söhbətdən sonra hərbi hissənin həyətindəki qəhrəmanlar güşəsinə baş çəkirik. Azərbaycanın Milli Qəhrəmanları Naiq Nəsir oğlu Yusifov və Qasım Qara oğlu Rzayevin timsalında Vətən uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsini yad edirik.

Budur, səngər həyatı yaşayan oğulların xidmət keçdiyi ərazilərdəyik. Bu yerlər düşmənlərdən mərdliklə qorunur. Əsgər nəsilləri torpaqlarımızın keşiyində fədakarlıqla dayanırlar.

Mayor Yaşar Abbasov təcrübəli zabitdir, neçə vaxtdır cəbhə bölgəsində xidmətini davam etdirir. Həmişə ona göstərilən etimadı doğrultmağa çalışan zabitin tabeliyində olan şəxsi heyət torpaqlarımızı mərdliklə qoruyur. Ara-sıra atəşkəsi pozmağa çalışan düşmənə layiqli cavab verilir.



Qarşı tərəflərə göz gəzdiririk. Döyüşçülərimiz bildirirlər ki, ara-sıra atəş səsləri eşidilsə də, nisbi sakitlikdir. Düşmən tərəfin mövqeləri daim nəzarətdədir.

Ötən illərlə müqayisədə əsgərin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər ön xətdə xidmət edən şəxsi heyətin rahatlığını təmin edir. Düşmənlə üzbəüz ərazilərdə xidmət edən əsgərlər hər cür qayğıya, diqqətə layiqdirlər. Döyüş növbətçiliyini həyata keçirən əsgər Nicat Fətəliyevlə tanış oluruq. Yaxın günlərdə ordu sıralarından tərxis olunacaq əsgəri hamı nümunəvi, çalışqan döyüşçü kimi tanıyır. O bildirir ki, bir neçə gündən sonra ordu sıralarını tərk etsə də, silahdaşlarını, komandirlərini heç vaxt unutmayacaq. "İlk növbədə mənə hərb sənətini öyrədən komandirlərimə minnətdaram. İstənilən vaxt torpaqlarımızın azadlığı uğrunda savaşa atılmağa hazıram".

Növbəti həmsöhbətim isə Biləsuvar rayonundan hərbi xidmətə çağırılmış Emin Abbasovdur. O, ürək sözlərini belə ifadə edir:

- Orta məktəb illərində həmişə şəhidlərin xatirəsini yad edirdik. Bir kəlam həmişə məni düşündürürdü: "Şəhidlər ölməz, Vətən bölünməz". Hərbi xidmətə gəldikdən sonra bunu daha dərindən anlamağa başladım. Çalışırıq ki, Vətən yolunda şəhid olan qardaşlarımızın döyüş yolunu davam etdirək. Buna görə də döyüş hazırlığımızı daha da artırır, əsgəri borcumuzu şərəflə yerinə yetiririk.

Əsgər Zəfər Vəliyev də cəsarətli, qorxmaz döyüşçülərdən biridir. Döyüş silahından məharətlə istifadə etməyi bacarır. Hər an düşmənə cavab vermək əzminə malikdir.

Zabit Yaşar Abbasov xidmətdə qazanılan nailiyyətlərdə şəxsi heyətin hər bir üzvünün zəhməti olduğunu bildirir. Zabitlərdən Namiq İbayevin, Yaqub Rzayevin, Kənan Şirinovun, baş gizir Mahmud İsmayılovun adlarını xüsusi qeyd edir.

Səngər həyatı yaşayan Vətən oğullarından ayrılsaq da, onların fədakarlığı qəlbimizdə qələbəyə inam hissini daha da artırır. Elə bu inamla vətənpərvər gənclərimizdən ayrılırıq.

**Mübariz MUSAOĞLU, "Azərbaycan Ordusu", fotolar Namiq ARİFOĞLUNUNDUR**

# Azərbaycan Ordusu müasir silah və texnika təminatına görə bölgədə liderdir

Polkovnik Yaqub ƏHƏDOV,
Müdafiə Nazirliyi Silah və Texnika İdarəsinin rəisi



***Bu gün hər bir vətəndaşımız qüdrətli ordumuzun mövcudluğundan qürurla danışan zaman ilk öncə ümummilli liderimiz Heydər Əliyevin xatirəsinə ehtiramını ifadə edir, çünki müasir Silahlı Qüvvələrimizin formalaşmasında dahi rəhbərin xidmətləri danılmazdır. Ötən əsrin sonlarına yaxın ikinci dəfə müstəqilliyini qazanan Azərbaycan dövlətinin möhkəmlənməsində, həmçinin ölkənin ərazi bütövlüyünün qorunmasında böyük öndərimizin misilsiz zəhməti olub. Bu gün ordu quruculuğunda xidmətləri olan təcrübəli hərbçilərə yaxşı məlumdur ki, Heydər Əliyev hələ respublikamıza ilk rəhbərliyi dövründə böyük uzaqgörənliklə Azərbaycanın hərbi potensialını yaratmışdı. Bakıda C.Naxçıvanski adına ibtidai hərbi məktəbin yaradılması bu sahədə böyük bir inkişaf mərhələsinin başlanğıcı idi. Bu təhsil ocağının yetirməsi olan zabit kontingenti doğma ordumuzun formalaşmasına layiqli töhfəsini verib və bu gün də bu proses davam etməkdədir.***

Heç kəsə sirr deyil ki, dövlətin müdafiə qabiliyyətini və ordunun gücünü xarakterizə edən əsas şərtlərdən biri maddi-texniki bazanın və silah-texnika arsenalının mövcudluğudur. Ümummilli liderin siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, Silahlı Qüvvələrimizin döyüş qabiliyyətinin möhkəmlənməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. 2003-cü ildə xalqımızın siyasi iradəsi ilə Prezident seçkilərində əksər üstünlüyə nail olmuş təcrübəli liderimiz hakimiyyətinin ilk günlərindən bəyan edib ki, ordu quruculuğunu inkişaf etdirmək onun siyasi kursunun əsas istiqamətidir. Elə bu siyasətin nəticəsi olaraq dövlətin orduya diqqət və qayğısı ildən-ilə artır. 2015-ci il üçün Azərbaycanın dövlət büdcəsində hərbi xərclərin əhəmiyyətli dərəcədə artırılması bir daha yuxarıdakı fikrin əyani sübutudur. Artıq bizim hərbi büdcəmiz Ermənistanın bütövlükdə dövlət büdcəsindən demək olar iki dəfə artıqdır.

Bu gün Azərbaycan Ordusunda həyata keçirilən ciddi keyfiyyət dəyişikliklərindən biri hərbi hissə və bölmələrin müasir silah-sursat və hərbi texnika ilə təmin edilməsidir. Açıq demək istərdim ki, hazırda Müdafiə Nazirliyinin rəhbərliyi, şəxsən hörmətli nazirimiz general-polkovnik Zakir Həsənov tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlərin nəticəsində ordumuz işğalçı dövlətlə müqayisədə yetərincə artıq və müasir silah-texnikaya malikdir.

> General-polkovnik Zakir HƏSƏNOV:
>
> *"Son on il ərzində əldə edilmiş silah-sursat, müasir hərbi texnika Ermənistan ilə Azərbaycan arasında hərbi sahədəki pariteti bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib".*

Əlbəttə, qabaqcıl dünya standartları səviyyəsində olan hərbi texnikamız çevik hərbi əməliyyatların aparılması üçün Silahlı Qüvvələrimizin imkanlarını daha da artıracaqdır.

Hələ bir neçə il öncə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev mühüm beynəlxalq tədbirlərin birində israrla qeyd etmişdi ki, ölkəmiz hərbi qüdrətini artırmaqda heç bir işğalçılıq məqsədini güdmür, sadəcə olaraq torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində sülh vasitəsi tükənəcəyi təqdirdə Azərbaycan qanuni ərazilərini hərbi yolla azad etmək məcburiyyətində olacaqdır. Məhz buna görə də Silahlı Qüvvələrimizin döyüş arsenalının müasir tələblər əsasında zənginləşdirilməsi ümumi fəaliyyətimizin başlıca istiqamətlərindən birini təşkil edir. Aparıcı şirkətlərlə bağlanmış etibarlı müqavilələr bu vacib məsələnin həlli istiqamətində uğurlarımızı artırmağa imkan verir. Artıq ölkəmizə yeni gətirilmiş müasir tipli silahlar, döyüş texnikaları qoşunların komplektləşdirilməsi üçün müvafiq hərbi hissələrə göndərilib. Ötən il birinci eşelon hərbi birlik və birləşmələrin döyüş hazırlığını gücləndirmək məqsədilə silah və texnikaların paylanması başa çatdırılıb, həmçinin istismar müddəti başa çatmış maşın və texnikalar yeniləri ilə əvəz edilib. Qeyd etmək istərdim ki, ordu rəhbərliyi əsasən ön xətdəki mövqelərdə döyüş texnikalarının saz vəziyyətdə saxlanmasına və istənilən vaxt çevik hərbi əməliyyatların yerinə yetirilməsi üçün hazır olmasına ciddi fikir verir.

Ötən dövrlə müqayisədə qoşunlarda hərbi texnikaların idarə edilməsi və onlara texniki qulluq göstərilməsi sahəsində yetərli uğurlar əldə olunub ki, bu da son bir ildə Müdafiə nazirinin təşəbbüsü ilə ordu təcrübəsi olan gənc mütəxəssislərin müddətdən artıq həqiqi hərbi xidmətə qəbul edilmələri ilə bilavasitə bağlıdır. Əslində ölkəmizin iqtisadi potensialının artması orduda bu kimi əhəmiyyətli islahatların həyata keçirilməsinə zəmin yaradır. Təcrübə göstərir ki, müddətli hərbi qulluqçudan fərqli olaraq müddətdən artıq xidmət edən hərbi qulluqçular maşın və texnikaları məsuliyyətlə idarə etməklə yanaşı, tabeliklərində olan bu texnikalara vaxtında və keyfiyyətli qulluq göstərirlər.

Düşmən tərəfin mövqelərinin ciddi nəzarətdə saxlanması məqsədilə ön xətdəki hərbi bölmələrimiz müasir gecəgörmə cihazları ilə təmin edilib. Təcrübəli zabit və gizirlər yeni tipli cihazların sirlərini şəxsi heyətə dərindən aşılamaqla qarşıda duran döyüş tapşırığının keyfiyyətli formada yerinə yetirilməsinə nail olurlar.

Hazırda motoatıcı bölmələrin döyüş gücünü artırmaq məqsədilə hərbi birləşmələrin istifadəsində olan əl qumbaraatanlarına döyüş dəstindən əlavə yeni növ döyüş sursatları paylanılıb. Ümumiyyətlə, müasir silah və texniki avadanlıqların silahlanmaya qəbul edilməsi istiqamətində işlər ardıcıl davam etdirilir. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun qeyd etdiyi kimi, "son on il ərzində əldə edilmiş silah-sursat, müasir hərbi texnika Ermənistan ilə Azərbaycan arasında hərbi sahədəki pariteti bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib". Hərbi bölmələrin silahlanmasına 120 mm-lik 2S12 "Sani" minaatan kompleksləri, 220 mm-lik TOS-1A reaktiv qurğusu, 152 mm-lik "Msta-S" və 120 mm-lik 2C31 "Vena" özüyeriyən artilleriya qurğuları qəbul edilib. Bir hərbi birləşmə isə BMP-3 ilə tam komplektləşdirilib. Bununla yanaşı digər hərbi birləşmələrin də müasir silah-sursatla təchizatına ciddi əhəmiyyət verilir. Ötən ilin əvvəlindən hazırkı dövrədək hərbi bölmələrin yüksək döyüş hazırlığını təmin etmək məqsədilə hərbi birləşmələrdə istismara və bərpaya yararsız olan silah və zirehli texnikalar qeydiyyatdan silinərək yeniləri ilə əvəz edilib.

Müdafiə nazirinin, Silahlı Qüvvələrin Baş Qərargah rəisinin və Maddi-Texniki Təminat Baş idarəsi rəisinin müvafiq əmr və göstərişlərinə uyğun olaraq, yerlərdə şəxsi heyətlə keçirilən təlim və toplantılarda hərbi qulluqçulara tövsiyə edirik ki, yeni silah və hərbi texnikaların düzgün istismar qaydalarına, onların texniki sazlığının qorunmasına ciddi əməl etsinlər. Ümumiyyətlə, belə vacib tədbirlərdə qarşıya qoyulan əsas məqsəd ordunun maddi-texniki gücünü artırmaq üçün bu sahəyə cavabdeh olan şəxsi heyətin məsuliyyət hissini gücləndirməkdir. Müdafiə naziri general-polkovnik Zakir Həsənov çıxışlarının birində tamamilə haqlı olaraq bildirib ki, ən müasir silahı idarə edən insan beynidir. Məhz bu baxımdan müasir silahlanmanı həyata keçirməklə bərabər şəxsi heyətin hərbi bilik və bacarıqlarının artırılmasına önəm verilməlidir. Gərək hər bir döyüşçü ona həvalə edilən silah-sursatdan düzgün istifadə etməklə onun istismar müddətini artırmaq üçün bacarığını əsirgəməsin. Ötən il Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində tədris prosesinin təkmilləşdirilməsi, hərbi hissələrdə təlim-məşq trenajorlarının hazırlanması nəticəsində maddi-texniki təminat sahələrinə cavabdeh olan zabit və gizirlərin hazırlığında əsaslı dönüş yaranıb. Bu sahədə maarifləndirmə işlərinə də önəm verilir. Belə ki, "Qoşunlarda raket-artilleriya silahlarının, onların döyüş sursatlarının praktiki atışlara hazırlanması üzrə Təlimat", "Qoşunların anbarlarında döyüş sursatlarının saxlanılmasının təşkili, texniki vəziyyətinin yoxlanılması və qiymətləndirilməsi üzrə Metodika" və s. təbliğat vasitələri hazırlanaraq Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsi rəisinin əmri ilə qüvvəyə minib.

Avtomobillərin və digər hərbi texnikaların döyüş tapşırığının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılması, baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması üçün şəxsi heyətin peşə hazırlığının yüksəldilməsi də qarşımızda dayanan əsas vəzifələrdən biridir. Bu məqsədlə hərbi hissələrin xidmət rəisləri tərəfindən vaxtaşırı nümunəvi məşğələlər və reydlər keçirilir. Hərbi hissə komandirləri və maddi-texniki təminat sahəsinə cavabdeh olan zabitlər tərəfindən bu sahəyə diqqət artırılır.

Ümumiyyətlə, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi mühüm bir məqsədə - torpaqlarımızın işğaldan azad edilməsinə yönəldilib. Bir daha ordu rəhbərliyini əmin etmək istərdim ki, idarəmizin kollektivi bu vacib vəzifənin yerinə yetirilməsinə tam hazırdır.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcəklər

Yanvarın 12-dən 14-dək Konya şəhərində (Türkiyə) "IŞIK-2015" təliminin əsas planlaşdırma konfransı keçiriləcək.

Tədbirdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***11 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 49 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Çaylı, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Cəvahirli, Şıxlar, Şirvanlı, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***12 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 51 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex, Barekamavan, Şavarşavan, İcevan rayonunun Berkaber, Azatamut kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Qızılhacılı, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Çaylı, Qızıl Oba, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Yusifcanlı, Cəvahirli, Şıxlar, Şuraabad, Kəngərli, Qaraqaşlı, Baş Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Silahlı Qüvvələrimizin mövqelərini atəşə tutublar.

Düşmən cavab atəşi ilə susdurulub.

***13 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlar, minaatan və qumbaraatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 75 dəfə pozub.

Ermənistan Respublikasının İcevan rayonunun Paravakar Berkaber, Vazaşen, Azatamut, Noyemberyan rayonunun Dovex, Barekamavan, Şavarşavan, Voskevan, Voskepar kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Qazax rayonunun Qızılhacılı, Cəfərli, Kəmərli, Fərəhli, Quşçuayrım, Aşağı Əskipara kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Ayqepar və Mosesqex kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun Çiləbürt, Göyarx, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Kəngərli, Yusifcanlı, Şıxlar, Şuraabad, Mərzili, Cəvahirli, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino kəndləri yaxınlığında, həmçinin Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə məruz qalıb.

Düşmən cavab atəşi ilə susdurulub.

*20 Yanvar faciəsindən 25 il keçir*

# Ülvi “And”ına sadiq qaldı



**1990-cı il 20 Yanvar faciəsindən 25 il keçir. Adama elə gəlir ki, o qanlı hadisələr, azadlıq carçılarına Sovet ordusu tərəfindən tutulan qanlı divan bu gün törədilib. Yanvarın 19-dan 20-nə keçən gecə də küçələr, meydanlar azadlıq təşnəsi olan soydaşlarımızın qanına boyandı. Bakı qan gölünə döndü. Oğul-qızlarımız Sovet ordusunun qəddarlığı, amansızlığı ilə üz-üzə olsa da, geri çəkilmədi.**

20 Yanvar hadisələrindən neçə zaman ötsə də, o ağrıları hələ də yaşayırıq. O zaman Sovet imperiyasının rəhbərləri hərb maşınını azadlıqsevər xalqımızın üzərinə yeritdi. Ölkə rəhbərliyinin xəyanətkar əməllərinə etiraz əlaməti olaraq ayağa qalxan, haqq səsini ucaldan, azadlıq, müstəqillik naminə meydanlara çıxan xalq güllələbaran edildi.

Xalqımız 20 Yanvar gününü həm də qəhrəmanlıq, qürur günü kimi qeyd edir.

O şənbə gecəsi minlərlə insan axınının içərisində xalqına, millətinə "azadlıq, müstəqillik" deyə hayqıran bir tələbə də vardı... Ülvi Yusif oğlu Bünyadzadə. İndi adı qürur günümüzün qəhrəmanlıq dastanında fəxrlə çəkilir, zaman keçdikcə çəkiləcək də. O, qeyri-adi istedadın sahibi, şair və tərcüməçi, neçə-neçə publisistik məqalənin müəllifi olub. Yazılarının içindən çıxan "And" onun ülvi məsləki idi. Gənc yaşlarından zamanı qabaqlayan Ülvinin şəxsiyyəti yazdığı "And"da aydın görünür. "Mən, Bünyadzadə Ülvi Yusif oğlu, həyatımda ilk və son dəfə öz vicdanım qarşısında and içirəm: bir elin, bir millətin adını təmsil etdiyimi heç zaman unutmayacağam, Azərbaycan torpağımın qürurdan, qeyrətdən yoğrulmuş adını müqəddəs tutacaq, bu ada ləkə vurmaq istəyən bütün ünsürlərə qarşı duracağam; öz azərbaycanlı varlığıma, vicdanıma, məsləkimə, əsl-nəcabətimə, damarlarımda axan azərbaycanlı qanına layiq oğul olacaq, qorxaqlığı, yaltaqlığı özümə yaxın buraxmayacaq, nəyin bahasına olursa-olsun, öz azərbaycanlı "mən"imi təsdiq edəcəyəm. Əgər vədimə xilaf çıxsam; qoy anamın südü, elimin çörəyi mənə haram olsun. Vətən üzü görməyim. 10.09.89".

Ülvi içdiyi "And"a sadiq qaldı. 1990-cı ilin 20 Yanvarında təcavüzkar Sovet ordusu Bakıya daxil olanda Ülvi də minlərlə yurddaşı kimi bu vəhşiliyə qarşı çıxdı və XI Qızıl Ordu meydanında aldığı güllədən yerindəcə həlak oldu. Azadlığımızın, müstəqilliyimizin ilk carçıları bu gün Şəhidlər xiyabanında uyuyur. Onların arasında Ülvi də var...

Ülvi axşama doğru meydana, məsləkdaşlarının - fədailərin yanına tələsirdi. Ailə qadağaları ona mane olurdu. Dostu Cavidi öyrədərək nənə-babasının yanına göndərdi. Caviddən xahiş etdi ki, onlara atasının rayondan gəldiyini, qurban kəsəcəyini bildirsin, bundan ötrü Ülviyə icazə alsın. Ülvinin getməyinə əvvəl-əvvəl təkidlə yox deyilsə də, sonda razılıq alındı. Ülvi meydana - dostlarının yanına getmək üçün dostunu yalan danışmağa vadar etdi. Bu, onun ömürdən şəhidliyə gediş gecəsi imiş.

Ülvinin məslək dostu, əqidə yoldaşı olan bibisi, filologiya elmləri üzrə fəlsəfə doktoru Almaz Ülviylə görüşməyi qərara aldım. Almaz xanım bu 25 ildə Ülvisiz olmayıb. Onu daim yanında hiss edib, ölməzliyinə inanıb.

Almaz xanımın Ülvi barədə söylədiklərindən: "Mən Ülvinin qısa, lakin şərəfli ömrünü əfsanəvi ömür adlandırıram. O, 1969-cu il sentyabrın 23-də Göyçə mahalının Kəsəmən kəndində ziyalı ailəsində anadan olmuşdu. Azərbaycan Xarici Dillər İnstitutunun II kursunda təhsil alırdı. Haqsızlığa, ədalətsizliyə qarşı mübariz idi. Ülvinin bütün yaradıcılığı - istər poeziyası, istər nəsri, istərsə də digər əsərləri mübarizlik və ümumbəşəri ideyalar üzərində köklənib. Bu əsərlərin hər birində Vətən müqəddəsliyi, milli azadlıq duyğusu və qeyrətli vətəndaş - oğul obrazının tərənnümü ana xətti təşkil edir".

Almaz xanım bir anlıq söhbətinə ara verir. O, danışdıqca həmin günlər gözlərimizin önündən kino lenti kimi keçib gedir. Xatırlayırıq gecənin qaranlığında işıq saçan o gülləleri... Həmin güllələrdən biri tələbə - şair Ülvinin tarixin hər dönəmində Azərbaycan gəncliyinə örnək olası ömür bağını qırdı.

Ölümündən sonra "Ülvi duyğularım", "Bir ölümün acığına", "Ömrüm sənin eşqindi", "Sənin oxşarın bənövşədi", rus, gürcü, türk, ingilis, özbək, qırğız, tatar dillərinə tərcümə olunmuş "Ömür yolu" kitabları və dövrü mətbuatda onlarla elmi-publisistik məqalələri nəşr edilib. Haqqında "Ülviləşən Ülvim" kitabı və saysız-hesabsız tədqiqat məqalələri yazılıb.



Ülvinin son illər Bakıda yaşadığı evin - babasıgilin evinin qarşısına Xatirə lövhəsi vurulub. Həmin küçəyə Ülvi Bünyadzadənin adı verilib.

İllər bir-birini əvəz edəcək, nəsillər dəyişəcək, lakin Vətən oğullarının xatirəsi ürəklərdə əbədi yaşayacaqdır. Ülvi Bünyadzadə də...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

*Təlim*

# Öyrənmək istəyi güclüdür

- Bu gün biz hərbçilərin üzərinə böyük vəzifələr düşür, - dedi zabit Asif Fərəcov. - Ən başlıca vəzifəmiz torpaqlarımızı erməni işğalçılarından azad etməkdir. Təbiidir ki, bu mühüm vəzifəni yerinə yetirmək üçün şəxsi heyətin döyüş hazırlığı yüksək olmalıdır. Məqsədimizə çatmaq üçün daim gənc əsgərlərə dərs və məşğələlər keçir, onlara hərbi bilik və döyüş vərdişlərini öyrədirik.



Kapitan Rəşad İmamquluyevlə birlikdə təlim meydanında məşğələ keçən zabit və əsgərlərin yanına yollandıq. Yolboyu xidməti işlərindən söz açan zabit qeyd etdi ki, təsdiq olunmuş döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyətə dərs və məşğələlər keçirik. Əsgərlərin döyüş hazırlığının yüksək səviyyədə olması hamımızı sevindirir. Çünki döyüş hazırlığı gələcək uğurlarımızdan xəbər verir.

Məşğələ saatının gərgin dəqiqələridir. Sıranın qarşısında dayanan leytenant Əfşan Abbasov şəxsi heyətə dərsin mövzusunu izah edir. Sonra əsgərlər təlim meydanında əlverişli döyüş mövqeyi seçməyi, hədəfə atəş açmağı öyrənirlər. Zabit Abbasov isə növbə ilə onlara yaxınlaşır, silahla rəftar və mövqe seçməyin qaydalarını öyrədir. Xidmətdə ilk addımlarını atan əsgərlər isə komandirin verdiyi məsləhət və tövsiyələrə düzgün əməl etməyə çalışırlar. Gənc əsgərlərin üzgözündən sevinc yağır. Hiss olunur ki, onlar həyatlarının xoş anlarını yaşayırlar.

- Gənc əsgərlərə dərs və məşğələ keçmək zabitlər üçün önəmli bir vəzifədir, - dedi leytenant. - Üzərimizə düşən bu şərəfli vəzifəni yerinə yetirmək üçün çalışırıq ki, dərs və məşğələlər səmərəli olsun, gənclərə hərbi bilikləri dərindən öyrədək. Bu gün sırada dayanan əsgərlər qısa müddət ərzində snayper tüfənginin sirlərini dərindən öyrəniblər. Onlar istənilən an hədəfləri dəqiq atəş zərbələri ilə məhv edə bilərlər. Əsgərlərdən Elçin Möhübbətli, Rövşən Xankişiyev, Kamran Cəlilov, Əlövsət Kərimov, Yaqub Mehrəliyev, Kamran Əsgərov və Aydın Ağababalı təlim-məşqlərdə daha fəal iştirak edərək hərbi bilikləri dərindən mənimsəyirlər.

Snayperlərin məşğələsi öz axarı ilə davam edir. Şəxsi heyət cəld və çevik hərəkətlərlə leytenant Əfşan Abbasovun tapşırıqlarını yerinə yetirir.

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

# III dərs

***Mövzu:*** **Azərbaycan xalqının azadlıq mübarizəsi və qəhrəmanlıq ənənələri.**

***Məqsəd:*** Azərbaycan xalqının azadlıq mübarizəsi və bu mübarizənin pik nöqtəsi olan 1990-cı il 20 Yanvar faciəsinin tarixi ilə şəxsi heyəti tanış etmək.

**SUALLAR:**

**1. Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi;**

**2. Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri.**

## Azərbaycanda milli-azadlıq hərəkatı və 20 Yanvar faciəsi

Azərbaycan xalqı əsrlər boyu öz azadlığı uğrunda qəhrəmanlıqla mücadilə edib, müstəqillik naminə qurbanlar verib. Tarix boyu qəddar düşmənlərimiz münbit torpaqlarımızın nemətlərindən bəhrələnmək üçün daim Vətənimizi istila altında saxlamağa, xalqımızın azadlıq və istiqlaliyyət arzularını boğmağa çalışsalar da, buna nail ola bilməyiblər. Hər bir vətənsevər azərbaycanlının köksündə yaşayan, közərən azadlıq qığılcımı zaman-zaman alovlanaraq xalqımızı mübarizəyə səsləyib. Belə mübarizələrdən biri də, bugünkü azadlığımıza, respublikamızın müstəqilliyə qovuşmasına yol açmış ötən əsrin 80-ci illərinin axırları, 90-cı illərinin əvvəllərində yeni vüsətlə baş qaldırmış xalqımızın milli azadlıq mücadiləsidir. Bu mücadilənin ən pik nöqtəsi isə xalqımızın azadlıq və istiqlaliyyət uğrunda hər cür ölümə, cəfaya hazır olduğunu bütün parlaqlığı ilə nümayiş etdirmiş 20 Yanvar 1990-cı il hadisələridir.

1988-ci ildə Dağlıq Qarabağda baş qaldırmış erməni separatizminə Kreml rəhbərliyi tərəfindən rəvac verilməsi, ardınca SSRİ Ali Sovetinin qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətində yaradılmış Xüsusi İdarə Komitəsinin Azərbaycana qarşı qərəzli mövqeyi sayəsində muxtar vilayətin idarə-müəssisələrinin tədricən Azərbaycanın tabeliyindən çıxarılması, azərbaycanlıların Ermənistandakı tarixi-etnik torpaqlarından deportasiya edilməsi, Moskvanın erməni separatçılarını cəzalandırmaq əvəzinə, Azərbaycan xalqının əl-qolunu bağlaması millətin səbir kasasını daşdırdı və xalqın yalnız özünə güvənə biləcəyini isbat etməklə XX əsrdə ikinci dəfə xalqımızı milli azadlıq mübarizəsinə qaldırmış oldu. SSRİ rəhbərliyindəki havadarlarına arxalanan erməni daşnaklarının Azərbaycan ərazilərinə və dinc əhaliyə qarşı azğın cinayətləri haqlı olaraq xalq kütlələrinin hiddətinə səbəb oldu. 1988-ci ilin noyabr-dekabr aylarında keçirilən ümumxalq mitinqi, 1989-cu il dekabrın 31-də Naxçıvanda Azərbaycanla İran arasında sərhəd dirəklərinin xalq tərəfindən sökülməsi SSRİ rəhbərliyini qorxuya salmaya bilməzdi. Azərbaycanda bütün gücü, möhtəşəmliyi ilə baş qaldıran milli azadlıq hərəkatının ittifaqın imperiya zülmündən əzab çəkən digər xalqları da ayağa qaldıracağından ehtiyatlanan kommunist partiyası rəhbərləri aktiv fəaliyyətə keçməyə qərar verdilər. Başqalarına dərs olsun deyə Azərbaycan xalqını cəzalandırmağı qərara alan mərkəzi hakimiyyət SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin vasitəsi ilə xalq hərəkatının boğulmasına əlverişli zəmin yaratmaq üçün Bakıda, Sumqayıtda, Lənkəranda, Cəlilabadda, Neftçalada və digər bölgələrdə təxribatlar törədərək erməni və rus mənşəli əhalinin "qondarma talanını" təşkil etdilər. 1990-cı il yanvarın 13-15-də Dövlət Təhlükəsizliyi Komitəsinin Sumqayıt ssenarisi əsasında "erməni talanları" törətməsi Moskvanın əlinə Azərbaycan xalqını cəzalandırmaq fürsəti vermiş oldu. Kütləvi ixtişaşların qarşısını almaq bəhanəsi əldə etmiş SSRİ rəhbərliyi 1990-cı ilin yanvar ayında Bakıya qoşun hissələri yeritməyə başladı.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti Azərbaycan Ali Sovetinin razılığı olmadan yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Xalqı qəfildən yaxalamaq, ona divan tutmaq, qırğın törətmək məqsədi ilə qoşunlardan istifadə etmək niyyəti, heç kəsə aman verilməyəcəyi elan edilmədi. Fövqəladə vəziyyətin başlanması gizli saxlanıldı. Fövqəladə vəziyyətin vaxtında elan edilməsi Moskvanın planlarını poza bilərdi.

Piketçilər Moskvanın və respublikanın səlahiyyətli nümayəndələrinin ordunun şəhərə girməyəcəyi haqqında dəfələrlə təkrar etdikləri vədlərə inanmışdılar. Xalqa məlumat verilməsin deyə, yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı.

Fövqəladə vəziyyətin yanvarın 20-də saat 00-da başlayacağının elan olunmasına baxmayaraq, qoşun hissələri yanvarın 19-da saat 21-də birinci olaraq Türkan-Qala tərəfdən şəhərə yeridildi. "Bakı əməliyyatı"na SSRİ Müdafiə naziri Dmitri Yazov şəxsən rəhbərlik edirdi. Bakı qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdən çıxarılan desant hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barikadaları dağıtdı. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, eyni zamanda adamları avtomat silahlardan güclü atəşə tuturdular. Şəhərin küçələri yüzlərlə ölmüş və yaralanmış günahsız adamların - qocaların, qadınların, uşaqların qanına qərq olunmuşdu. Qoşunlar təsadüfən yola çıxanları, yaşayış evlərini, təcili yardım maşınlarını atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, təhqir edir, eybəcər hala salırdılar. Əli silahsız zirehli texnika qarşısına çıxan adamları ağır hərbi texnikanın altına salır, əzabla öldürürdülər. Onlar tibb müəssisələrini dövrəyə alaraq yaralı mülki şəxslərin buraya gətirilməsinə, habelə tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Bakıya yeridilən Sovet qoşunları həmin gecə şəhərin müxtəlif yerlərində 121 nəfəri qətlə yetirdi, 700-dən artıq vətəndaş isə yaralandı və xəsarət aldı. Respublikanın digər yaşayış məntəqələrinə də Sovet ordusunun hücumu nəticəsində o günlərdə ümumilikdə 132 nəfər, o cümlədən 6 rus, 3 yəhudi, 3 tatar öldürülmüş, 744 nəfər yaralanmışdı. Həlak olanlardan 123-ü kişi, 5-i qadın, 4-ü isə azyaşlı uşaqlar, yaralananlardan isə 25-i qadın, 20-si uşaq idi. 400 nəfər həbs olunmuş, 4 nəfər itkin düşmüşdü.

20 yanvar tarixindən Bakı şəhərində fövqəladə vəziyyət tətbiq olunması haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin 19 yanvar tarixli fərmanı isə ancaq yanvarın 20-də səhər saat 6-da xalqa elan edildi.

Qanlı Yanvara etiraz olaraq respublikada 40 günlük ümummilli tətil başlandı. Əli heç yerə çatmayan, öz rəhbərliyi tərəfindən belə ağrısı, acısı duyulmayan xalqın haqq səsinə səs verən, xalq harayını bütün dünyaya çatdıran isə o zaman Moskvada DTK-nın nəzarəti altında yaşayan Heydər Əliyev oldu. Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək burada təşkil olunmuş izdihamlı yığıncaqda çıxış etdi. Bu ağır gündə xalqla olduğunu bildirdi, 20 Yanvar faciəsinə siyasi qiymət verdi, əliyalın xalqın qırılmasını hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Bu tarixi çıxışın mətni respublikada, bütün dünyada geniş yayıldı. Təklənən, əli heç nəyə çatmayan xalqın qəlbində ümid çırağı yandı. Xalq Heydər Əliyev kimi nüfuzlu şəxsiyyətin, doğma oğlunun onunla olduğunu, onu cəsarətlə müdafiə etdiyini gördü, ürəkləndi.

Bakı, bütün Azərbaycan, fövqəladə vəziyyətə baxmayaraq, yanvarın 22-də şəhidlərlə vidalaşdı. Şəhər matəm libası geymişdi. Respublikada 3 gün matəm elan olunmuşdu. "Azadlıq" meydanında böyük matəm mitinqi keçirildi. Mitinqdə və dəfn mərasimində 2 milyona qədər adam iştirak edirdi. Bu, azadlıq yolunda müqəddəs şəhidlərə ehtiramın, habelə Moskvanın qanlı əməllərinə qarşı etirazın ifadəsi idi. Şəhidlər şəhərin ən uca yerində - Dağüstü parkda dəfn edildilər.

Hər bir xalqın tarixində həm faciəli məqamlar, həm də qəhrəmanlıq səhifələri olur. Çox nadir hallarda bu iki məqam üst-üstə düşür. Azərbaycan xalqı 1990-cı ilin Qanlı Yanvarını həm faciə, həm də qəhrəmanlıq səhifəsi kimi yaşadı. O müdhiş gecənin sınağından mətanətlə çıxan Azərbaycan xalqı azadlıq uğrunda mübarizəyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Sonrakı tariximiz göstərdi ki, xalqımızın azadlıq yolu qəhrəmanlıq tariximiz olan 20 Yanvardan keçərək müstəqilliyə, istiqlaliyyətə apardı.

## Tarixin gerçəkliyi, Qanlı Yanvarın ibrət dərsləri

1990-cı il yanvarın 20-də Azərbaycan paytaxtına və respublikanın bir sıra rayonlarına Sovet ordusu hissələrinin qanunsuz yeridilməsi, dinc əhalinin qırılması totalitar rejimin törətdiyi ən qanlı aktlardan biri və bütün bəşəriyyətə qarşı yönəldilmiş cinayət idi. Bu cür cinayətlərin təhqiqi, onların səbəblərinin, nəticələrinin üzə çıxarılması, təşkilatçılarının adlarının aşkarlanması məsələsində vaxt amili yoxdur və bunlar vəhşilik, soyqırımı əməllərinin təkrarlanmaması üçün xəbərdarlıq olmalıdır.

Yanvar faciəsinin bir çox səbəbləri var, onun kökləri tarixin dərinliklərinə gedib çıxır. Sovet İttifaqı Kommunist Partiyasının 1-ci katibi, SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun müəllifi olduğu yenidənqurma onların inkişafını ancaq sürətləndirdi, labüd faciənin son mərhələsini yaxınlaşdırdı. Bəs bu səbəblər ümumən hansılardır? Əvvəla, mərkəzin Sovet imperiyasını, kommunist sistemini nəyin bahasına olursa-olsun, qoruyub saxlamaq cəhdi; ikincisi, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmlətmək cəhdi; üçüncüsü, SSRİ rəhbərlərinin Azərbaycan xalqı barəsində qərəzli siyasəti, yenidənqurma haqqında demaqoqcasına şüarlar altında sərhədləri dəyişdirmək və xüsusən Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdi; dördüncüsü, keçmiş mərkəzin mənəvi, siyasi, maliyyə və hərbi-iqtisadi yardımına əsaslanan erməni separatizmi və Ermənistanın təcavüzü; beşincisi, o dövrki Azərbaycan rəhbərlərinin xəyanətkar fəaliyyəti.

Lakin Yanvar faciəsinə gətirib çıxarmış əsasən "Sovet" səbəbləri və amillərinin yalnız yuxarıda sadalanmış siyahısı ilə kifayətlənmək olmaz. Yanvar faciəsinin daha dərin tarixi kökləri var. Qara Yanvar XIX əsrin əvvəllərindən bəri Azərbaycan xalqına qarşı törədilmiş cinayətkar əməllər silsiləsində ancaq bir vəsilədir. Azərbaycana qarşı qərəzli, ədalətsiz münasibətin əsasını uzaq hədəfli coğrafi-siyasi planlar təşkil edir ki, bu planları da SSRİ rəhbərliyi "beynəlmiləl qardaşlıq" yaradılması kimi ideoloji pərdə altında uzun illər həyata keçirmişdir. Əgər Alma-Ata (1986), Tbilisi (1989), Vilnüs (1991) hadisələrinə müraciət etsək, onda hökmən belə bir sual doğur: nə üçün həmin aksiyalar bu qədər qanlı və geniş miqyaslı olmamışdır? Nə üçün Tbilisi və Vilnüs hadisələri ilə əlaqədar Qorbaçov peşman olduğunu bildirdi, gürcü və Litva xalqlarından üzr istədi, Azərbaycanda baş vermiş hadisələrlə əlaqədar isə yalnız bir dəfə, 1995-ci ilin aprel ayında Türkiyədə səfərdə olarkən "Bakıda fövqəladə vəziyyət elan etmək və oraya qoşun göndərmək mənim siyasi həyatımda ən böyük səhvim idi" deyə səhvini etiraf etsə də, xalqdan üzr istəməyi lazım bilmədi.

Azərbaycan xalqı öz qəhrəman övladlarının fədakarlığını yüksək qiymətləndirərək hər il 20 Yanvarda onların əziz xatirəsini dərin ehtiramla yad edir.

20 Yanvar xalqımızın milli mənliyinə, milli azadlıq ruhuna qarşı təcavüz idi. Lakin Azərbaycan xalqı öz qürurunu itirmədi, onun iradəsi qırılmadı. Xalqımızın qan yaddaşına silinməz faciə kimi yazılmış 20 Yanvar eyni zamanda xalqımızın qəhrəmanlıq səhifəsidir. Biz 20 Yanvarı milli matəm kimi qeyd edirik, ancaq o müdhiş gecəni həm də iftixar hissi ilə xatırlayırıq. Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsində 20 Yanvar faciəsinin özünəməxsus əhəmiyyəti var. 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan xalqına qarşı törədilmiş cinayət, əbəs tökülmüş qanlar, insanların vəhşicəsinə qətlə yetirilməsi Azərbaycan xalqının müstəqillik uğrunda mübarizə əzmini qıra bilmədi. SSRİ rəhbərliyinin Azərbaycan xalqına qarşı törətdiyi bu qanlı cinayət xalq kütlələrini daha da birləşdirdi, onların mübarizliyini daha da artırdı. Həmin gecə Azərbaycan xalqı özünün yenilməzliyini, qəhrəmanlığını, Vətənə, torpağa sədaqətini, azadlıq uğrunda mübarizə əzmini bütün dünyaya bəyan etdi. Məhz bu əzmin, iradənin sayəsində xalqımız müqəddəs arzusuna çatdı, milli azadlığına qovuşdu. Azərbaycan müstəqil dövlət kimi dünya birliyinə daxil oldu.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycan tarixində "Qanlı Yanvar" faciəsi kimi yaddaqalan 1990-cı ilin 20 Yanvar hadisələrinin səbəbləri və nəticələri daha dəqiq araşdırıldı və müstəqil Azərbaycan Respublikası 1994-cü ildə 20 Yanvar faciəsinin hərbi təcavüz və cinayət kimi tam siyasi-hüquqi qiymətini verdi, bu hadisələrin təşkilatçıları olan Mixail Qorbaçov, Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov və başqalarının cəzalandırılmasını tələb etdi.

20 Yanvar müqəddəs "Şəhid" kəlməsini yenidən bütün tarixi məzmunu ilə dilimizdə canlandırdı. XX əsrin əvvəllərində milli mənliyimiz və müstəqilliyimiz uğrunda şəhid olanların basdırıldığı yer, Sovet dövründə Dağüstü park adı ilə əyləncə yerinə çevrilərək xalqın yaddaşından silinmişdi. İndi isə, müstəqilliyimiz, milli mənliyimiz, torpaqlarımızın azadlığı uğrunda canını fəda edən Vətən övladlarının dəfn olunduğu bu yer xalqın ziyarətgahına çevrilib. "Şəhidlər xiyabanı" - dünənimizi bu günlə, bu günümüzü sabahla birləşdirən, xalqın birliyinin, iradəsinin və qətiyyətinin nümayiş olunduğu müqəddəs bir məkandır.

Respublika rəhbərliyi tərəfindən hər zaman 20 Yanvar faciəsinin təbliğinə geniş önəm verilib. 2010-cu ildə cənab İlham Əliyevin təşəbbüsü ilə Bakıda, 20 Yanvar meydanında möhtəşəm xatirə kompleksinin ucaldılması da məhz bu məqsədə, acı, lakin şərəfli tarixin xalqın yaddaşında yaşadılmasına xidmət edir.

Bu gün 20 Yanvar faciəsində şəhid olanların xatirəsini hörmətlə yad edərkən fəxrlə deyə bilərik ki, onların uğrunda canlarını qurban verdikləri müstəqilliyin əldə olunmasından artıq bir neçə il keçmişdir. Müstəqil Azərbaycan Respublikası dünya dövlətlərarası münasibətlər sistemində öz yerini tutmuş və bütün dünyaya sübut etmişdir ki, müstəqilliyimiz əbədidir, dönməzdir.

Ancaq müstəqilliyimizin ilk illərində, 1991-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı ədalətsiz ərazi iddiası ilə təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20%-i işğal olundu və bu gün Azərbaycanın ərazi bütövlüyü bərpa olunmamışdır. Ona görə də 20 Yanvar faciəsinin 25-ci ildönümü ərəfəsində hər bir Azərbaycan vətəndaşı, Azərbaycan Ordusunun hər bir əsgəri, giziri və zabiti bir daha dərk etməlidir ki, şəhidlərimizin qanı bahasına müstəqil olmuş Azərbaycanın ərazi bütövlüyünü bərpa etməliyik.

Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan Respublikası tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması sahəsində görülən işlərlə bağlı Azərbaycan dövlətinin rəsmi mövqeyini bəyan edərək demişdir: **"Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".**

Artıq 2015-ci tədris ilinin döyüş hazırlığı planına əsasən, hərbi hissələrdə və birləşmələrdə döyüş və ictimai-siyasi hazırlıq dərsləri başlamışdır. Qarşıda şəxsi heyəti gərgin dərs prosesi, çöl məşğələləri, taktiki təlimlər gözləyir. Azərbaycan Ordusunun hərbi qulluqçusunun bu dərslərdə və təlimlərdə əldə etdiyi yüksək nəticələr, hər bir nailiyyət, hər bir uğur bizi Vətənimizin ərazi bütövlüyünün bərpası uğrunda müqəddəs mübarizədə qələbəyə daha da yaxınlaşdırır. Müasir döyüşdə ancaq yüksək döyüş hazırlıqlı, həvalə olunmuş texnikanın və silahların sirlərinə mükəmməl yiyələnmiş, intizamlı, mənəvi-psixoloji və fiziki cəhətdən dözümlü olan əsgər qalib gələ bilər. Hər bir Azərbaycan əsgəri bu keyfiyyətləri əldə etmək üçün dərslərdə və təlimlərdə komandirlər tərəfindən öyrədilənləri yaxşı qavramalı və döyüşdə tətbiq etməyi bacarmalıdır ki, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizin qisasını almağa hazır olsun.

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

AZƏRBAYCAN ORDUSU

*Əlağa Şıxlinski - 150*

# Artilleriyaçı sərkərdə

***Əsrlər boyu Azərbaycanımıza şöhrət gətirən Qazax mahalı tariximizə, ədəbiyyatımıza, elm və mədəniyyətimizə neçə-neçə şeir, sənət fədailəri, sərkərdələr bəxş edib. Molla Pənah Vaqif də, Molla Vəli Vidadi də, Səməd Vurğun da bu diyarın övladı kimi dahi Nizaminin poetik dühasından, fəlsəfi təfəkküründən bəhrələnib, Azərbaycan ədəbiyyatı tarixində dərin iz qoyublar. Cavanşirin, Babəkin, Şah İsmayıl Xətainin, Cavad xanın sərkərdəlik ənənələrini yaşadan Əlağa Şıxlinski, İbrahim ağa Vəkilov, İbrahim ağa Usubov, Fərrux ağa Qayıbov kimi hərb xadimlərimiz Qazax elinin qəhrəmanlıq tarixinə yeni səhifələr yazıblar. Onların arasında xüsusi ilə fərqlənən çar Rusiyası və Azərbaycan Ordusunun generalı, tanınmış hərbçi alim Əlağa Şıxlinski hərb elmindəki kəşfləri və yenilikləriylə Vətəni Azərbaycanın adını dünyada tanıdıb.***



Görkəmli sərkərdənin xidmət dövrünü 3 mərhələyə bölmək olar: Çar ordusu; Azərbaycan ordusu (1918-1920-ci illər) və Sovet ordusundakı xidməti.

Əlağa İsmayıl ağa oğlu Şıxlinski 23 aprel 1865-ci ildə Qazax qəzasının Qazaxlı kəndində anadan olub. Elinə, obasına bağlı, əsilnəcabətli, sayılıb-seçilən, hörmətli bir nəslin nümayəndəsi olan Ə.Şıxlinski hələ gənc ikən ömür yolunun xəritəsini də hazırlamışdı. O, 1876-cı ildə Tiflisdə özəl gimnaziyanı bitirir. Hərbçi olmaq, hərb elminin sirlərinə dərindən yiyələnmək arzusu onu Tiflis hərbi gimnaziyasına gətirir. Ə.Şıxlinski ilk ibtidai hərbi təhsilini bu gimnaziyada alır. 1883-cü ildə oranı bitirən Ə.Şıxlinski Peterburqda artilleriya məktəbinə daxil olur. Gələcəyin topçu alimi, artilleriya Allahı həmin məktəbi 1886-cı ildə başa vurur. Mükəmməl ali hərbi təhsilə sahiblənən Ə.Şıxlinski Aleksandropoldakı (Gümrü) 39-cu topçu briqadasına təyinat alır. 1900-cü ilədək bu briqadada xidmət edir və kapitan rütbəsinə qədər yüksəlir. 1900-cü ildə Zabaykalye əlahiddə artilleriya diviziyasına göndəriş alan kapitan Şıxlinski 1902-ci ilin mayında müvəqqəti olaraq, Peterburqa 6 aylıq kursa göndərilərək Səməd bəy Mehmandarovun yerinə 2-ci batareya komandiri vəzifəsinin icraçısı təyin edilir. Ə.Şıxlinski 4-cü Şərqi Sibir atıcı-topçu briqadasının tərkibində 1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsində iştirak edir. Müharibənin gedişində göstərdiyi qəhrəmanlıqlara görə, Çar Rusiyasının ordu komandanlığı onu 4 ordenə, podpolkovnik rütbəsinə və bir sıra qiymətli hədiyyələrə layiq görür. Həmin döyüşlərin iştirakçısı, 1906-cı ildə "Port-Arturun əzablı günləri" adlı ikicildlik monumental əsərin müəllifi P.Larenko yazırdı ki, Laperov dağında batareya komandiri kapitan Əlağa İsmayıl ağa oğlu Şıxlinski ağır yaralanmışdı. Bütün qafqazlılar kimi cəsur olan bu komandir Kinjo döyüşlərində, "Zelyonnı" və "Volçye" vuruşmalarında əsl qəhrəman kimi iştirak etdi. Avqustun əvvəllərində öz batareyası ilə "Vısokaya qora"da, avqustun 10-dan isə daim Laperovda olmuşdur. Elə buradan da düşmənin daxil olacağı əraziləri və istehkamları atəşə tutur, həmlə kolonlarını dəf edərək onların səhra artilleriyası ilə inamlı döyüşlər aparırdı...

Çar ordusunun zabiti Ə.Şıxlinski 1905-ci ilin mayında Odessa hərbi dairəsinin 15-ci artilleriya briqadasına, bir ildən sonra isə hərbi təhsilini, nəzəri biliklərini daha da təkmilləşdirmək məqsədi ilə Çarskoye Selodakı topçu zabitlər hazırlayan məktəbə göndərilir.

1906-cı ilin avqustunda təhsilini başa vurub briqadaya dönsə də, 1907-ci ilin əvvəlində Şıxlinski artilleriyadan dərs demək üçün yenidən həmin məktəbə dəvət olunur. 1908-ci ildə məktəbdə işləyən Ə.Şıxlinskiyə polkovnik rütbəsi verilir.

1912-ci ildə general-mayor rütbəsinə layiq görülən Ə.Şıxlinski 1914-cü ildə müəyyən müddətdə Çarskoye Selo topçu zabit məktəbinin rəisi vəzifəsini icra edir. O, 1914-cü ilin sentyabrında Petroqradın artilleriya hücumundan müdafiəsinin rəisi vəzifəsinə təyin olunur. 1915-ci ilin əvvəlində Şimal-Qərb cəbhəsi komandanının sərəncamına göndərilərək, həmin ilin mayından komandanın tapşırıq generalı vəzifəsinə təyinat alır. 1914-cü ilin aprelində general-leytenant rütbəsi alan Şıxlinskiyə sentyabrın 10-da Qərb cəbhəsi 10-cu ordusunun komandanı vəzifəsi tapşırılır. Lakin iki ay sonra, Şıxlinski səhhəti ilə əlaqədar həmin vəzifədən azad olunaraq, Qafqaz hərbi dairəsinin ehtiyatına göndərilir.

Ə.Şıxlinskinin Çar ordusu sıralarındakı xidməti "Müqəddəs Stanislav" ordeninin hər üç dərəcəsi ilə, "Müqəddəs Anna" ordeninin hər dörd dərəcəsi ilə, "Müqəddəs Vladimir" ordeninin 2, 3 və 4-cü dərəcələri ilə, "Müqəddəss Georgi" ordeninin 4-cü dərəcəsi ilə xarici dövlətlərin orden və medalları ilə, qiymətli hədiyyələrlə qeyd olunub.

Məlum 1917-ci ilin oktyabr inqilabından sonra Çar ordusunda xidmət keçən azərbaycanlı zabitlərin əksəriyyəti Qafqaz hərbi dairəsinin ehtiyatına göndərilir. Çox keçməyəcək ki, həmin zabitlər əvvəlcə Müsəlman korpusunun, sonra 1918-ci il iyunun 26-da yaradılan Əlahiddə Azərbaycan korpusunun komandiri general Əlağa Şıxlinskinin rəhbərliyi altında birləşərək müstəqil Azərbaycanın ordusunu yaradacaqlar.

**Hazırladı:**
**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**



*Tibb xidməti*

# Silahlı Qüvvələrin Baş Klinik Hospitalında uğurlu cərrahi əməliyyatlar həyata keçirilib

***Silahlı Qüvvələrin Baş Klinik Hospitalına ağır miokard infaktı diaqnozu ilə daxil olan xəstə Vasif Xanışova Hospitalın Ürək-Damar Mərkəzində təxirəsalınmaz yardım göstərilib. Xəstə hərbi tibb müəssisəsinə təxliyyə olunduqdan sonra onun üzərində təcili anjioqrafik müayinə və aorta koronar şuntlama əməliyyatı icra olunub. Xəstənin həyati təhlükəsi aradan qaldırılaraq müalicəsi uğurla davam etdirilib və hospitaldan evinə buraxılıb.***

Digər bir xəstə Elman Muradzadə isə "hər iki ağciyər arteriyasının ağır (massiv) tomboemboliyası və sol aşağı ətrafın bütün venalarının tamamən trombozu" diaqnozu ilə ağır vəziyyətdə hospitalın Ürək-Damar Mərkəzinə təxliyyə olunmuşdur.

Xəstəyə ağciyər tromboemboliyasında dünyada ən müasir müalicə üsulu olan gücləndirilmiş ultrasəs dalğaları və selektiv trombolizis proseduru həyata keçirilərək (EKOS) ağciyərdəki və aşağı ətrafdakı tromblar 18 saat ərzində əridilərək uğurlu nəticə əldə edilib.

Müalicəsi uğurla başa çatdırılan E.Muradzadə də evinə yazılıb.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# “Mütəşəkkil, sayıq və təşəbbüskar olmaq hər birimizin borcudur”

## Sülhməramlılarımızın növbəti qrupu Əfqanıstana yola salınıb

***"N" hərbi hissəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 39 nəfərdən ibarət qrupunun plana uyğun olaraq rotasiya qaydasında Əfqanıstana yolasalma mərasimi keçirilib.***



Yaranmış fürsətdən istifadə edib döyüşçülərimizlə söhbət edirəm. İlk həmsöhbətim sülhməramlı kontingentin komandiri mayor Teyfur Rüstəmovdur.

- Sülhməramlı bölüyümüz bu günə kimi Əfqanıstanın Kabul şəhərində yerləşən bir strateji obyektin mühafizəsini yerinə yetirirdi, - deyir müsahibim. - Yeni tapşırığa əsasən sülhməramlılarımız Kabul şəhərində yerləşən Beynəlxalq Hava Limanını qoruyacaqlar. Dünyanın mürəkkəb bir münaqişə bölgəsində xidmət etmək nə qədər çətin, məsuliyyətli olsa da, şərəfli və müqəddəsdir. Hər bir sülhməramlı hərbçimiz qarşısına qoyulan vəzifənin məsuliyyətini dərindən dərk edir və yaxşı bilir ki, beynəlxalq sülhməramlı qüvvələrin komandanlığı altında xidmət etməklə Vətənimizi və Silahlı Qüvvələrimizi təmsil edir.

Növbəti həmsöhbətim isə sülhməramlı kontingentimizin tərkibində 2-ci dəfə Əfqanıstana yollanan çavuş Eldar Talıbovdur. Onun sözlərinə görə, Vətənindən, doğmalarından uzaqda çətin olsa da, Əfqanıstanda xidmət etmək şərəflidir. "Çünki davranışımızla, nizam-intizamımızla, mədəniyyətimizlə Azərbaycanı təmsil edəcəyik. Xidmətimiz ikiqat məsuliyyətlidir. Həm qarşımıza qoyulan vəzifəni layiqincə yerinə yetirməli, həm də digər dövlətlərin sülhməramlı qüvvələri arasında ölkəmizi lazımi səviyyədə tanıtmalıyıq”.

Şəki şəhərindən hərbi xidmətə çağırılan bacarıqlı döyüşçü Nicat Hüseynovla söhbətimi davam etdirirəm.

- Sevinirəm ki, Əfqanıstanda Azərbaycanı və Silahlı Qüvvələrimizi təmsil edərək xidmətimi davam etdirəcəyəm, - deyir əsgər. - Hər birimiz bu məsuliyyətin fərqindəyik. Tək məqsədimiz Vətənimizə layiqli xidmət etməkdir. Həmçinin dövlətimizin maraqlarını, mədəniyyətini, tarixini başqa dövlətlərin nümayəndələri arasında layiqincə təbliğ və təmsil etmək də borcumuzdur.

Əsgər Samir Mustafayev 6 aydır ki, doğulub boya-başa çatdığı Goranboydan hərbi xidmətə çağırıldığını bildirərək deyir:

- Çox şadam ki, sülhməramlı missiyada Azərbaycanı təmsil edən şəxsi heyətin üzvüyəm. Vətənimizi təmsil etməyim ilk dəfə deyil. Ali təhsil aldığım dövrdə də bir neçə xarici dövlətdə dəfələrlə dövlətimizi elmi və ictimai-siyasi sahələrdə təmsil etmişəm. Silahlı Qüvvələrin nümayəndəsi olaraq mütəşəkkil, sayıq və təşəbbüskar olmaq hər birimizin borcudur.

Xatırlatmaq istərdim ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Əfqanıstandakı sülhməramlı missiyası 2002-ci il noyabrın 20-dən başlayıb. Hazırda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 94 hərbi qulluqçusu, o cümlədən iki hərbi həkimi və iki mühəndis-istehkam ixtisası üzrə zabiti bu ölkədə beynəlxalq sülhyaratma missiyasında iştirak edir.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Bacarıqlı sürücü, intizamlı əsgər

***Hazırda ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları müxtəlif vəzifələrə təyin edilməklə göstərilən etimadı doğruldurlar. Belə əsgərlərdən biri ilə bu yaxınlarda cəbhə bölgəsində yerləşən hərbi hissədə tanış oldum.***

Zabit D.Əliyev sürücü əsgərin necə bacarıqlı və öz işinin öhdəsindən layiqincə gələ bildiyini önə çəkdi. Əsgər Röyal Mirzəyev bir sürücü kimi ona həvalə edilmiş yük avtomobilini ustalıqla idarə edir. Onlar dağlıq şəraitdə xidmət etmələrinə baxmayaraq, hər kəs üzərinə düşən döyüş tapşırığını yaxşı dərk edir. Belə ki, əsgərlər qarlı havada da döyüş tapşırıqlarını daha mükəmməl yerinə yetirməyə çalışırlar. Hər bir döyüşçü iqlim şəraiti sərt olan ərazidə xidmət etməkdən qürur duyur.

Sürücü əsgərlə maşınların saxlanc yerində görüşürəm. Əsgər daim maşının yanında olur, ona texniki qulluq göstərir, idarə etdiyi texnikanı silib təmizləməkdən usanmır.



Röyal Mirzəyev qədim Göyçə mahalının Zod kəndində anadan olub. 1988-ci ildə məlum hadisələrdən sonra digər soydaşları kimi onun da valideynləri dədəbaba yurdunu tərk etməyə məcbur olub. Vaxtilə arxa, kömək durduğumuz bədnam ermənilər sonradan millətimizə qənim kəsildi. Ermәni vəhşiliyinin, daşnak zülmünün acıları illər ötsə belə unudulan deyil. Budur, qarşımda dayanan bu gənc hərbçi hələ də erməni zülmündən qurtulmadığını deyir. O, daim doğma dədə-baba yurdunun həsrətini çəkir.

Röyal artıq bir ilə yaxındır burada xidmət edir. Onun arzusudur ki, tezliklə erməni işğalı altında olan torpaqlarımız azad olunsun və doğma Azərbaycanımızın ərazi bütövlüyü təmin olunsun. Röyalın doğmaları qədim Göyçə mahalından köçkün düşəndə Göygöl rayonunda yurd salıblar. Bura da onlar üçün Vətəndir, ancaq yenə doğulduğu məkan üçün darıxdıqları şübhəsizdir. Bunu Röyalın öz dilindən eşitdim. Əsgər R.Mirzəyev deyir ki, bir hərbçi kimi ona verilən istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdı, təki erməni işğalı altında olan torpaqlarımız azad olunsun.

Təhkim olunduğu yük avtomobilini daim saz vəziyyətdə saxlayan sürücü istənilən an çıxışa hazır olduğunu bildirdi. Hərbi qulluqçu avtomobili mükəmməl idarə etdiyini, hətta təmir-bərpa işlərini də bacardığını söylədi. Hətta o, bölmədə olan başqa sürücü yoldaşlarına da köməyini əsirgəmir. Bu cür həmrəylik, söz yox ki, döyüşçülər arasında olmalıdır.

Komandirlə söhbətimdən öyrəndim ki, Röyal bacarıqlı sürücü olmaqla yanaşı, həm də bölmədə nizam-intizamlı hərbçi kimi tanınır.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Laçın (17 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## "Bakı-2015" Avropa Oyunları "Sky İtalia" şirkəti ilə saziş imzalayıb

Yanvarın 8-də "Bakı-2015" ilk Avropa Oyunlarının İtaliyada yayımlanmasını təmin edəcək sazişi imzalayıb. AzərTAc xəbər verir ki, aparıcı yayım şirkəti olan "Sky Italia" idman kanalları vasitəsilə Avropa Oyunlarının birbaşa yayımını və yarışlardan əsas məqamların yayımlanmasını, eyni zamanda, "Sky Go" vasitəsilə Oyunların geniş işıqlandırılmasını təmin edəcək.

"Sky İtalia" şirkətinin idman hüquqları, proqramlaşdırma və prodakşn üzrə direktoru Matteo Mammi deyib: "Birinci Avropa Oyunları bütün qitənin zövq alacağı möhtəşəm idman bayramı olacaq. Biz ölkəmizdə Oyunların yayımını həyata keçirəcəyimiz üçün fəxr edirik. Bakıda 17 gün ərzində möhtəşəm yarışların keçəcəyinə və tamaşaçılarımız üçün yarışlardan ən yaxşı məqamları nümayiş etdirəcəyimizə böyük ümidlər bəsləyirik".

## Teymur Rəcəbov "Tata Steel Masters" superturnirində mübarizə aparır



Hollandiyanın Veyk-an-Zee şəhərciyində "Tata Steel Masters" ənənəvi şahmat festivalı başlanıb. AzərTAc xəbər verir ki, superturnirdə dünya çempionu Maqnus Karlsen başda olmaqla 12 top-qrossmeyster mübarizə aparacaq. Norveçli şahmatçının rəqibləri Azərbaycan qrossmeysteri Teymur Rəcəbovla yanaşı, Fabiano Karuana (İtaliya), Aniş Giri (Niderland), Uesli Sou (ABŞ), Maksim Vaşye-Laqrav (Fransa), Radoslav Voytaşek (Polşa), Din Lijen (Çin), Baadur Cobava (Gürcüstan), Vasili İvançuk (Ukrayna), Xou İfan (Çin), Lük Van Veli (Niderland), İvan Sariç (Xorvatiya) və Levon Aronyandır (Ermənistan).

## FİFA milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb

FİFA futbol üzrə milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. AzərTAc xəbər verir ki, ötən ayla müqayisədə Azərbaycan milli komandası bir pillə geriləyərək 215 xalla 136-cı pillədə qərarlaşıb. Reytinq cədvəlinə 1725 xalla Almaniya millisi liderlik edir. Argentina komandası ikinci, Kolumbiya yığması isə üçüncü pillədə yer alıb.

## Eddi İsrafilov Azərbaycan yığmasında oynamaq təklifini qəbul edib

Xəbər verdiyimiz kimi, AFFA ilə İspaniyanın "Qranada" klubunda çıxış edən əslən azərbaycanlı Eddi İsrafilov arasında futbolçunun yığmamızda oynaması ilə bağlı danışıqlar aparılırdı.

AzərTAc xəbər verir ki, Eddi İsrafilov yığmamızda oynamaq təklifini qəbul edib.

Futbolçunun anası və meneceri yanvarın 8-də Bakıda olub, AFFA-nın baş katibi Elxan Məmmədov ilə görüşüblər.

İradə İsrafilova deyib ki, artıq bu məsələni həll etməyin vaxtı çatmışdı. “Gəlişimizdən razıyıq. Danışıqlarımız müsbət yekunlaşdı və Eddi növbəti toplanışda iştirak edəcək”.

## Azərbaycanın dörd qadın güləşçisi beynəlxalq reytinqdə yer alıb

Dünya Güləş Birliyi 2014-cü ilin yekunlarına görə, qadın güləşi üzrə yeni ilin ilk reytinq siyahısını açıqlayıb. AzərTAc xəbər verir ki, qadın güləşçilərin reytinq sıralamasında 4 idmançımızın adı var.

Ötən il dünya çempionatının gümüş mükafatçısı Yuliya Ratkeviç (60 kq) və bürünc medalçısı Mariya Stadnik (48 kq) reytinqdəki mövqelərini qoruyublar. Güləşçilərimiz müvafiq olaraq, ikinci və dördüncü sırada qərarlaşıblar. Siyahıda İrina Netreba (58 kq) 10-cu, Nadya Sementsova (69 kq) isə 13-cüdür.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Miçman Cabbarov İlkin Akif oğluna 2011-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Ceyhun CƏFƏRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 185
Nüsxə 4300